Azərbaycan.- 2021.- 24 aprel. S. 1; 9.

# Vaksin insanları virusdan nə vaxta qədər qoruyur?

**Ümumdünya Səhiyyə Təşkilatının həftəlik epidemioloji bülletenində dərc olunan məlumata əsasən, ötən həftə dünyada koronavirusa yeni yoluxanların sayı 5,2 milyonu ötüb.**

Son həfətdə yoluxma 14 faiz, ölənlərin sayı isə 8 faiz artıb. Məlumatda deyilir ki, qlobal planda ardıcıl olaraq səkkizinci həftədir ki, COVID-19-a yoluxmada artım davam edir. Bu göstərici 2021-ci ilin yanvarında müşahidə olunan ən yüksək həddən yuxarı göstəricidir. Təl-Əviv Universitetində aparılan yeni tədqiqatın nəticələri isə göstərir ki, koronavirusun Britaniya ştammı birinci koronavirus dalğası ilə müqayisədə 45 faiz daha yoluxucudur.

*Ardı 9-cu səh.*

# Vaksin insanları virusdan nə vaxta qədər qoruyur?

Əvvəli 1-ci səh.



Yeni növ koronavirusun dayanmadan yoluxma zəncirini genişləndirməsinə qarşılıq olaraq dünyada COVID-19 əleyhinə peyvəndləmə işləri də sürətlə davam etdirilir. Mütəxəssislər birmənalı olaraq peyvəndin virusa qarşı ən güclü silah olduğunu vurğulayaraq, hər kəsin ən qısa zamanda vaksinasiyadan keçməsini tövsiyə edirlər.

Digər tərəfdən də artıq peyvənd olunanları düşündürən bir sual ortaya çıxıb: peyvənd insanları koronavirusdan nə vaxta qədər qoruyur? Eyni zamanda getdikcə daha çox yayılmış virus ştammlarına qarşı peyvəndin nə dərəcədə qoruyucu olması da suallar sırasındadır.

Mütəxəssislər peyvəndlərin qoruyuculuğunun müddəti ilə bağlı hələ dəqiq bir vaxt müəyyənləşdirməyin mümkün olmadığını vurğulasalar da, istehsalçılar tərəfindən aparılan klinik sınaqlar peyvəndlərin qoruma müddəti ilə bağlı bəzi məlumatları verir. Belə ki, aprelin 6-da "Moderna" peyvəndi istehsalçılarının "New England Journal of Medicine" elmi jurnalına yazdığı məktubda peyvəndin yüksək səviyyədə qorumasının iki doza peyvənd olan insanlarda 6 aya qədər artdığı bildirilib. Şirkət tərəfindən aparılan araşdırmada iştirak edən ümumilikdə 900 nəfərin 6 ay əvvəl iki doza peyvənd aldığı və yüzdə 90-dan çoxunun COVID-19-a yoluxmadığı ifadə edilib.

Aprelin 1-də "Pfizer" peyvəndinin nümayəndələri "BioNTech" şirkəti ilə əməkdaşlıq edərək istehsal etdikləri bu vaksinin virusdan qoruması ilə əlaqədar açıqlama veriblər. Açıqlamada 46 min insanın məlumatlarının izlənildiyi və peyvəndin qoruma səviyyəsinin vaksinasiyadan 6 ay sonraya qədər 91,3 faiz səviyyəsində olduğu bildirilib. İkinci doza "Pfizer" peyvəndlərinin ağır hallara qarşı qoruyucu təsirinin 6 aydan sonra 95 faz səviyyəsində olduğu qeyd olunub.

Çinin "Sinovac" şirkətinin istehsalı "CoronaVac" peyvəndi ilə bağlı izahatı isə şirkətin icraçı direktoru Yin Veidonq verib. Çinin qabaqcıl qəzetlərindən biri olan "Global Times"ə müsahibə verən Yin, peyvəndin ikinci doza tətbiq edildikdən sonra iki ay ərzində yüzdə 80-90 nisbətində qorumanı təmin etdiyini, ancaq vaksinasiya olan insanlarda antikorların zamanla azaldığını söyləyib: "Hazırda bir tərəfdən 6-cı aydan sonra qoruma nisbətlərinə dair məlumatları təhlil edirik, digər tərəfdən üçüncü doza peyvəndin vurulmasının qoruma səviyyəsini artırıb-artırmayacağı ilə bağlı təcrübələr aparırıq. Yaxın gələcəkdə nəticələri gözləyirik".

Qeyd edək ki, Çinin "Sinovac Biotech" şirkəti indiyədək 260 milyon doza COVID-19 virusu əleyhinə peyvənd istehsal edərək, sifarişçilərə çatdırıb. "CoronaVac" peyvəndinin Çin, Türkiyə, İndoneziya, Braziliya da daxil olmaqla, 30-dan çox ölkədə tətbiqinə icazə verilib. Yanvarın 18-də Azərbaycanda başlanan COVID-19 virusuna qarşı vaksinasiya prosesində də məhz "Sinovac"ın peyvəndindən istifadə edilir.

Təsirsiz hala gətirilmiş (inaktivləşmiş) bu peyvəndin hazırlanmasında orqanizmdə ciddi xəstəliyə və ya əkstəsirə səbəb olmadan bədənin immunitet sistemini virusa məruz qoymaq üçün öldürülmüş virus hissəciklərindən istifadə olunub. Ümumdünya Səhiyyə Təşkilatının Ekspertlər Şurası "Sinovac" şirkətinin istehsalı olan vaksinin təhlükəsiz və effektli olduğunu bildirib.

Rusiya istehsalı olan "Sputnik V" peyvəndi ilə bağlı son açıqlamada isə peyvəndin qorumasının "ömürboyu" davam edə biləcəyi bildirilib. "Sputnik V" peyvəndi hazırlayan Gamaleya adına Epidemiologiya və Mikrobiologiya Tədqiqat İnstitutunun direktoru Aleksandr Ginzburq ötən həftə Rusiya mətbuatına verdiyi açıqlamada bildirib ki, "Sputnik V" peyvəndinin iki il deyil, bir ömürboyu təsirli olacağına ümid edirəm: "Peyvəndin bir neçə ay və ya bir il yox, ən azı 2 il toxunulmazlıq təmin edəcəyinə ümid edirik. Klinik sınaqlardan əldə etdiyimiz nəticələr bunu təsdiqləyir. Əlbəttə ki, bu sahədəki işimizi davam etdiririk".

"The Lancet" elmi jurnalında yayımlanan bir məqalədə isə "Sputnik V" peyvəndlərinin orta təsir nisbətinin yüzdə 91,6 faiz olduğu, 60 yaşdan yuxarı insanlardakı təsir nisbətinin isə yüzdə 91,8 fazi olduğu açıqlanıb.

"Vaşinqton Post" qəzetinə danışan ABŞ mütəxəssislərinin fikrinə görə, peyvəndlərin qoruma müddəti insandan-insana dəyişə bilər. Oregon Dövlət Universiteti Qlobal Sağlamlıq Mərkəzinin direktoru Çunxuey Çi daha güclü immun reaksiyası olan insanların daha çox antikor və yaddaş hüceyrəsi istehsal etdiyini bildirib. Amma onu da vurğulayıb ki, ancaq daha güclü immun reaksiyasının olması viruslardan qorunmanın müddətinin daha uzun olacağı anlamına da gəlmir.

Türkiyəli mütəxəssisi, doktor Gülay Okay bildirir ki, peyvəndin effektivliyini azaldan bəzi amillər də var: "Məsələn, immunosupressiv dərman istifadə edən xəstələrə peyvəndin bu dərmanlarla eyni vaxtda tətbiq edilməməsi məsləhətdir. İmmunosupressiv dərmanların peyvənddən ən az 14 gün sonra tətbiq edilməsi tövsiyə olunur. Kimyəvi terapiya alan xərçəng xəstələrində isə peyvənd kimyəvi terapiya bitdikdən ən azı üç ay sonra tətbiq olunmalıdır".

Mütəxəssislərin də yekdilliklə gəldiyi qənaət odur ki, koronavirus pandemiyasına qarşı ən təsirli qorunma yolu peyvənddir və mütləq hər kəs vaksinasiyadan keçməlidir ki, dünya COVID-19 bəlasından canını qurtarsın.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***